BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Sosial-siyasi elmlər seriyası 2010*

# İNSANIN MAHİYYƏTİ, ONUN ÖLMƏZLİYİ HAQQINDA ƏL-QƏZALİ ƏBU HAMİD İBN MƏHƏMMƏDİN BAXIŞLARI

**DELBASTEH NOSRAT AĞABABA oğlu**
***Bakı Dövlət Universiteti***
***imanov.gamid@gmail.com***

*Məqalə müasir dövrdə Şərq və Qərb arasında dialoqları səpkisində xüsusi əhəmiyyət kəsb edən bir problemə həsr olunur. Məqalənin müəllifi bu müddəadan çıxış edir ki, insan, onun təbiəti, həyatının mənası haqqında baxışlar mistisizm səviyyəsində Qərbdən əvvəl qədim Hindistanda və Çində müxtəlif fəlsəfi məktəblərdə təhlil olunmuşdur. Bu qısa məlumatdan sonra, müəllif Orta əsrlərdə İslam ölkələrində geniş yayılan sufilik təliminə müraciət etmişdir. Bu problemi isə görkəmli İslam mütəfəkkiri və filosofu Əl-Qəzalinin baxışlarının araşdırılması ilə konkretləşdirmişdir.*

Əl-Qəzali, İmam Qəzali və ya Həccətül-islam adı ilə tanınan islam filosofu 1058-ci ildə Xorasanın Tus şəhərində doğulmuşdur. XI əsr siyasi, elmi, mədəni və dini baxımdan islam aləminin və təfəkkürünün güclü yüksəlişi dövrü olmuşdur. Bu əsrin mühüm mədəni hadisələri arasında Bağdadda Nizamül-Mülkün yaratdığı Nizamiyyə mədrəsəsinin fəaliyyətə başlaması da nəzəri cəlb edir. Nişapurda və başqa şəhərlərdə buna bənzər mədrəsələr açılmışdır.

Malik şahın sarayında Nizam Əl-Mülk tərəfindən dəvət olunanlar sırasında dahi riyaziyyatçı və astronom, sufi rubailərinin müəllifi Ömər Xəyyam da olmuşdur. Deyilənlərə görə Ömər Xəyyamdan on yaş kiçik olan Əl-Qəzali rəsədtxanada Xəyyamdan ulduzlar haqqında sorğular etmiş və Xəyyam ətraflı məlumat vermiş və öz nitqini necə qurtaracağını sanki itirmişdir. Bu anda əzan verənin dua oxumağa çağırışı səslənmişdir. Bu səsi eşidən kimi Əl-Qəzali demişdir: «Bax, Həqiqət gəldi». Bu sözlərlə rəsədxananı tərk etdi.

Nizam Əl-Mülk 1091-ci ildə Əl-Qəzalini Bağdadda yaradılmış Nizamiyyə universitetinə müəllim götürmüşdür. O, burada müsəlman hüququ və digər fənnlərdən dərs demişdir. Qəzalinin müəllimlik fəaliyyəti 1095-ci ilə kimi davam edir. Bu zaman Nizam Əl-Mülk və Malik şah öldürülmüşdür. Səlcuqlar imperiyasının daxili çəkişmələri başlamışdır. Qəzali 1095-ci ildə mədrəsəni tərk edir, əvvəlcə Şamda iki il tənha həyat sürür, sonra Qüdsə gedərək ibadət və mütaliə ilə məşğul olur, Həcc ziyarəti edir və İsgəndəriyyəyə gəlir. On bir il sürən bu səyahətdən sonra 1105-ci ildə doğma Tus şəhərinə qayıdır.

Məhz bu illərdə (1091-1105) Əl-Qəzali özünün üç cildlik «İnam haqqında elmlərin dirçəlməsi» əsərini yazır. Bu əsər müxtəlif bölmələrdən və fəsillərdən təşkil olunur. Birinci bölmə «Bilik haqqında kitab» bu sözlərlə başlayır. Peyğəmbər deyib: «Biliyə can atmaq hər bir müsəlmanın borcudur», «Biliyi hətta Çində axtarın».

Məhəmməd Peyğəmbərin bu sözləri tək müsəlmanlara deyil, hər bir insana aiddir. Belə ki, bilik Allaha doğru gedən başlıca yollardan birini təşkil edir. Yüksək Biliyin daşıyıcılarından biri məhz qədim yəhudi və qədim yunan mətnləri oxuyan və öz əsərlərini ərəb dilində yazan Əl-Qəzali olmuşdur.

Əl-Qəzali 1111-ci ildə Tus şəhərinin şeyxi kimi vəfat etmişdir.

Əl-Qəzali əsasını antik yunan fəlsəfəsi təşkil edən fəlsəfi sistemlərə qarşı çıxıb, onlara islam mövqeyindən hücum edən Şərq ilahiyyatçı mütəfəkkiri olmuşdur. O, güclü bir fəlsəfə tənqidçisi, sistemli fikirləşən kəlamçı, dərin biliyə malik olan din hüquqşünası, təsəvvüfə (sufiliyə) haqq qazandırıb, onu əsaslandırmağa çalışan islam mütəfəkkiridir.

Əl-Qəzalinin həyat və yaradıcıdığını tədqiq edən, İslamın VIII əsrində yaşamış Subhi yazırdı: «Əgər Məhəmməddən sonra Peyğəmbər olsaydı, o əlbəttə, Qəzali olardı».

Əl-Qəzalinin insanın varlığı və təbiəti haqqındakı baxışları onun belə bir müddəasına əsaslanır: Allah insanı iki şeydən xəlq edibdir. Bunlardan birincisi yerə sərilmiş sucuq materiyadan ibarətdir. Bu materiya təbiətin qüvvələrinə məruz qalır, onun mövcud olması kənar qüvvələrdən asılıdır. İkincisi, dərk edən, təmiz, sadə və şəfəq saçan, bütün alətləri və cisimləri hərəkətə gətirən və təkmilləşdirilməsinə xidmət edən ruhdan ibarətdir.

Əl-Qəzali insan ruhundan danışarkən onun iki növ gücə malik olduğunu söyləyir: a) bilici güc, b) yaradıcı güc.

Bu güclərin hər birinə əql adı da vermək olar.

Qəzali bu güclərin araşdırılmasına ikinci gücdən yaradıcı gücün araşdırılmasından başlayır. Yaradıcı güc insan həyatının tələb və ehtiyaclarını nəzərə alıb bədəni hərəkətə gətirən gücdür. Bədənin digər gücləri bu gücə tabedir. Əgər bu güc heyvani nəfsin güclərinə nəzarət etməzsə pis əxlaq, pis vücud hasil olar, əgər bu güc digərlərinə hakim olarsa, fəzilət və yaxşı əxlaq yaranar. İnsan doğrunu yalandan, yaxşını pisdən ayıra bilir.

Bilici (idraki) güc: bu güc xaricdən və daxildən dərk etməkdən ibarətdir.

Qəzali ruhun (nəfsin) varlığını sübut etmək üçün belə bir mühakimə yürüdür. Bütün cisimlər cisim olmaqla müştərəkdirlər. Cisim olmağın ilk şərti isə üç ölçüyə sahib olmaqdır. Əgər cisimlərin hərəkət etməsinin səbəbi onların məhz cisim olmasındadırsa, deməli, bütün cisimlər hərəkətdədirlər. Əgər onların hərəkətlərinə kənardan təsir edən səbəb vardırsa, bu ruhdur (nəfsdir).

Qəzali yazır: «Mən qəlb və ruh dedikdə, qidaya ehtiyacı olan qüvvəni və ya həyəcan və kin və ya ürəkdə məskənləşən və hisslər, hərəkətlər ilə başqa orqanlara yayılan qüvvəni nəzərdə tutmuram. Belə ki, bunların hamısı heyvani ruhlar adlanır, o hisslər, hərəkətlər, kinlər onun ordusunu təşkil edirlər. Məsələn, qara ciyərin işləməsi nəticəsində insanda yaranan iştah gücü fiziki ruh adlanır, həzm onun nəticələrindən və atributlarından xilas olmaq, eləcə də çoxalma, nəql istehsal etməklə əlaqədar olan güclər fiziki güc olub bədənin xidmətində olurlar. Bədənə də heyvani ruh xidmət edir» (1, 161).

Əl-Qəzali ruhun üç növünün olduğunu göstərir: bədən, keçici hadisə və təmiz (saf) mahiyyət. Heyvani ruh müəyyən bədəndir, subitildir. Qəzali bu ruhu fitilə bənzədərək göstərir ki, o ürəkdə yerləşir və sinədən asılıdır: həyat həmin fitildən işıqlanmalıdır; qan çırağın yağıdır; hisslər və hərəkətlər onun işığıdır; həyəcan, kin-küdurət ondan doğan tüstüdür.

Qəzali «İlm-i Laduni» adlı əsərində bu ruh haqqında belə deyir: «Bu ruh bütün heyvanlarda vardır, o cümlədən insanlarda mövcuddur, belə ki, onun özü bədəndir. Bu ruh biliyə və kamilliyə öyrədilməmişdir. Ona Yaradıcı məlum deyildir. O, bədənin ölümü ilə ölür, bədənin sökülməsi, parçalanması ilə parçalanan Əsir düşmüş nökərdir» (1, 162-163).

Qəzaliyə görə ruhda əsas yeri qəlb təşkil edir. «Ruh Allahın əmrindədir» deyir. Bu münasibətlə Qurandan bu surələri gətirir: «De ki, ruh mənim Allahımın əmrindədir» (Quran 17:87).

Allahın əmri nə bədəndir, nə də xarici formadır. O İlahi qüvvədir, xalis substansiyadır, materiya ilə əlaqədar deyildir, qeyri-maddi süni təşkil olunur, rasional və qeyri-hissidir. Ruh bölünməz və əbədidir, onun kəmiyyəti yoxdur. Düşünən nəfs insanın ruhudur. O heç bir vaxt məhv olmur, başqa nəyə isə çevrilmir, bədəndən ayrılır və yenidən ona qayıtma gününü gözləyir.

Əl-Qəzali insanın və onun ruhunun fərqləndirici cəhətlərindən biri kimi biliyə sahib olmağı göstərir. Bu problemin şərhinə o, bilik, bilik sahibi və dərk olunanın araşdırılmasından başlayır. Bilik (elm) zəkalı insan qəlbinin ayrı-ayrı şeylərin xarici mahiyyətləri, kəmiyyət və keyfiyyətləri, forma və məzmunları haqqında əldə etdiyi mücərrədləşdirilmiş həqiqətlərindən ibarət təsəvvürlərdir.

Qəzaliyə görə bilən əşyalar haqqında məlumata sahib olan və onları əldə edib təsvir edəndir. Dərk olunan təsvir etmək nəticəsində qəlbdə əks olunanlardır. Bunu da bilmək lazımdır ki, biliyin dəyəri dərk edilənin dəyərindən və bilik sahibinin rütbəsindən və dərəcəsindən asılıdır. Ən yüksək bilik yaradıcı haqqında olan bilikdir.

İlahi haqqında biliyin bütün biliklərdən yüksək olması başqa bilikləri inkar etmək deyildir. Bütün biliklər nəyin dərk edilməsindən asılı olmayaraq gözəl və səmərəlidir. Çünki bilik nadanlığın ziddidir. Nadanlıq qeyri-mövcudluqla əlaqədardır, bilik isə varlığın mövcudluğunun sinonimidir. Əl-Qəzali bu münasibətlə Qurandan bu surəni səsləndirir: «De ki, bilik sahibləri ilə biliksizləri müqayisə etmək olarmı» (Quran 39-12).

Bilik («ilm») iki növə bölünür: rasional bilik («ilm» - pakli) və İlahi qanundan gələn bilik («ilm» - i-şəri).

Əl-Qəzali rasional bilikləri: riyaziyyatı, məntiqi; təbiətşünaslıq biliklərini: kimyanı, tibbi; varlıq haqqında bilikləri aid edir.

İlahi qanunlardan gələn biliklər (mənəvi-şəri elmlər) öz növbəsində «üsul», yəni touhid (kəlam) və «furuh», yəni əməli elmlərə bölünür. «Furuh» elmləri fiqh və əxlaq elmlərindən ibarətdir.

İlahi qanundan gələn biliklər iki növə bölünür:

A) törəmə biliklər (ilm-i furu) (ilm-i axkam). Bu növə sosial qaydalar, qarşılıqlı münasibətlər, səcdə etmək stunları, məzəmmət etmək, tərifləmək, əxlaq, keyfiyyət, məzmun.

B) əsasların bilikləri (ilm-i üsul) (elmi touhid).

Əl-Qəzalinin rəyinə görə bəşəriyyətin mistik biliklərə sahib olmasının və bilikləri öyrənməyin iki yolu vardır: birincisi hissi yoldur, o bütün düşüncəli insanların yoludur. Bu yolun özünün də iki növü vardır: onlardan birində bilik öyrənilmə prosesində mənimsənilir, digərində isə fikirləşmə və düşünmə sayəsində mənimsənilir. Fikirləşmə və daxili düşünmə özünü təlim keyfiyyətində göstərir. Bu proses insan ruhunun ümumruhdan istifadə etməsidir.

Qəzali göstərir ki, bilik insan ruhunda potensial yerləşmişdir. Elə bil ki, yerə

əkilmiş dən və ya mədəndə qiymətli daşdır.

İkinci yol, yəni İlahi təlimat yoludur ki, onun da iki növü vardır: birincisi, İlahi vəhydir. İlahi vəhydə ruh özünün kamillik səviyyəsinə çatır və Kainatın mənbəyinə və özünün yaradıcılığına doğru yönəlir. İlahi isə onu xüsusi diqqət və qayğı ilə qəbul edir. İkinci növ İlahi təlqinetmədir. İlahi təlqinetmə insanın fərdi qəlbi Ümumi qəlbdən öz saflığı, imkanı və qabiliyyətinə görə bəhrələnir.

Sufilikdə insan əqlinə yüksək qiymət verilir. Bununla belə əqlin pozitiv rolu idrakın məhdud sahəsinə aid edilir. Əl-Qəzali bu münasibətlə deyir: «Böyük predmet gözə kiçik görünə bilər. Göz üçün günəş boşqabdan böyük deyildir... İnsanın əqli başa düşür ki, əslində Günəş Yerdən dəfələrlə böyükdür. Təxəyyül və xülya çox tez-tez elə nəticələrə və hökmlərə gətirir ki, biz bunları əqlin fəaliyyətinin nəticəsi hesab edirik. Deməli, səhv diqqətsiz və ya duyğusuz insanın fikri prosesinin aşağı səviyyəsindən yaranır» (2, 45).

Sufilikdə idrakın nəticəsi hiss üzvlərinin verdiyi məlumatlar əsasında əldə edilir. Hiss üzvləri bizi aldada bilir. XIII əsrdə yaşamış sufi şair və mütəfəkkiri Rumi «Fil necə görünür» adlı ibarəli hekayəsində yazır: «Şəhərə bir fil gətirilmişdir. Onu şəhərin küçələrinə çıxarmazdan əvvəl qaranlıq bir tikintidə yerləşdirirlər. Fili tez görmək istəyənlər ona əlləri ilə toxunurlar. Filin xortumuna toxunan səsləndi ki, fil su borusuna oxşayır. Bu anda filin qulağına əlini gəzdirən qadın səsləndi ki, fil milçək qovan yelliyə bənzəyir. Digəri filin ayağına toxunub, dedi ki, fil sadəcə sütundur. Filin belinə əl gəzdirən kişi isə səsləndi ki, fil şahın taxtına bənzəyir. Qaranlıqda filə öz əlini vuran neçə adam olsa, o qədər də müxtəlif rəylər söylənəcəkdir».

**Məsnəvi**

«Hər yerdə zülmət və qaranlıq olur
İnsanları bilikdən və əqldən məhrum edir
Bununla bərabər rəy müxtəlifliyi bəlkə də
Kiçik şam işığında aradan qaldırılır» (2; 146).

Əl-Qəzali insanın təbiətində, onun mahiyyətində sevgi hissinin xüsusi yeri olduğunu dönə-dönə vurğulamışdır. Görkəmli şərqşünas alim Y.Bertels «Sufizmin yaranması və sufist ədəbiyyatın meydana gəlməsi» adlı əsərində yazır ki, Qəzali etiraf edir ki, rəsmi mömin dindar özünün bütün borcunu mərasimlərin quru və formal icrasına müncər edərək, hiss üçün heç bir yer qoymur, bununla ancaq çox məhdud insanlar barışa bilərlər. Sufilikdə hisslər böyük rola malikdir. Onun rəyinə görə, Əl-Qəzalinin «ilahiyyatçılığı canlandırmaq» üçün sufilikdən bəzi mistik elementləri möminliyə gətirmək lazımdır. Bu elementlər sırasına Əl-Qəzali sevgi hissini də aid edir (2, 517).

İdris şah «Sufizm» adlı tədqiqatında yazır ki, sevgi sufiliyin inkişafının və təcrübəsinin, məqsəd və vasitəsinin fəal əlaməti olduğunu göstərir (2, 607).

Əl-Qəzali sevgi haqqında demişdir: «Sevgi ancaq idrakın nəticəsi ola bilər, belə ki, insan nəyi bilirsə onu da sevir. Ona görə də o, daşı sevə bilməz, sevgi dərk edən canlının xassəsidir. Sevginin mənası dərk etmək üçün xoş olana meyldir».

Əl-Qəzaliyə görə hər bir canlı mövcudatın sevgisinin ilk obyekti onun özüdür. Onun özünə olan sevgisinin mənası ondan ibarətdir ki, özünün varlığını daim davam etdirməyə rəğbəti və yox olmağa qarşı olan nifrəti vardır. İnsan daimi varlığını sevir, ölümdən, yox olmaqdan zəhləsi gedir.

Elə hallar olur ki, insan həyatında əzablar çəkərkən onlardan xilas olmaq üçün ölüm arzulayır (2, 33-34).

Əl-Qəzaliyə görə insan özü-özünü sevdiyini gizlətmir, başqasını da özünün naminə sevdiyini etiraf edir. Belə ki, hər bir canlı mövcudatın sevgisinin obyekti onun özüdür. Eləcə də insan varlığının kamilləşməsi və onun davam etdirilməsi, şübhəsiz ki, sevginin obyektini təşkil edir. İnsanın ürəyi onun üçün xeyir verəni sevir, ona pislik gətirəni sevmir. Peyğəmbərimiz demişdir: «İlahi kafirin məni bağışlamasına imkan vermə, mənim ürəyim onu sevə bilər». Belə ki, ürəyin sevgisi yaradılmış iltifat olub, anadangəlmə xüsusiyyətidir, onu dəyişdirmək olmaz. Bu səbəbdən insan onunla heç bir qohumluq əlaqəsi olmayan yadellini də sevə bilər.

Əl-Qəzali sevgi ilə ölməzlik arasında maraqlı əlaqəni belə şərh edir. İnsan öz kiçik uşağını, hətta ondan bir ləzzət almasa da sevir, onun üçün bütün çətinliklərə dözür. Belə ki, həmin uşaq atanın ölümündən sonra onun varisi olacaqdır, nəslinin mövcudluğunu davam etdirmək, insanın özünün qismən mövcudluğunun davam etdirilməsidir. Özünün saxlanılması naminə olan böyük sevginin yerini onu əvəz edənə olan sevgi tutur.

Əl-Qəzaliyə görə gözəlliyi dərk edən üçün, hər cür gözəllik sevginin obyektini təşkil edir. O, gözəl olduğu üçün insan onu sevir, belə ki, gözəlliyi dərk etmək zövq almaqdır. İnsan odu, çiçəkləri, gözəl formada olan quşları, meşəni, çəmənliyi və s. seyr etməkdən zövq alır, həmin anlarda qəmdən, qayğıdan, kədərdən azad olur. İnsan seyr etməkdən başqa ayrı bir zövqə tələbat hiss etmir. Beləliklə, zövq verən nə varsa sevginin obyektidir.

Sevgi hisslərin və iradənin digər şəxsə, insan birliyinə və ya ideyaya yönəldilməsidir. Bu ixtiyari predmetə «özünü həsr etmək», eyni zamanda onu «özününkü etmək» tələbatı ilə müşahidə olunur.

Beləliklə, gözəllik hiss ilə duyulmayan keyfiyyətlərdə də ola bilər və olur. Ecazkar adam, gözəl elm. Bu ləyaqətli şagirddir, yaxşı mənəvi simadır, dedikdə, onun təhsili, əqli, ədəbi, cəsarəti, alicənablığı və digər covmərdlik nəzərdə tutulur. Bu keyfiyyətlərin çoxu beş hiss orqanları tərəfindən deyil, daxili əqlin işığı ilə dərk edilir. Deməli, bütün bu keyfiyyətlər sevginin obyekti ola bilər.

İstər görünən, istərsə də daxili gözəllik həmin obrazı zənginləşdirir. Görünən obraz fiziki gözlə, daxili obraz isə daxili zəka ilə dərk edilir. Daxili zəkadan məhrum olan kəs bu obrazın gözəlliyini dərk edə bilməz, ondan zövq ala bilməz.

Əl-Qəzali peğəmbərimizin dediyi bu sözləri yada salır ki, «Sizin dünyanızda mənim sevdiyim üç predmet vardır: aromat, qadınlar və məni sevindirən divalar». Əl-Qəzali peyğəmbərin bu tezisini belə açıqlayır: aromat, baxmayaraq ki, ancaq məftunedici zövq verir, burada nə görmə, nə də eşitmə iştirak etmir.

Qadınlar sevginin obyektini təşkil edirlər, baxmayaraq ki, onlar ancaq görmək və ləmsə üçün xoşdurlar. Məftunediciliyə, dada, nə də eşitməyə heç nə vermirlər. Dua etmək sevinc adlanır, o sevginin əsas obyektidir, ondan beş hiss orqanı vasitəsilə deyil, altıcısı vasitəsilə ləzzət alırsan, bu altıncı ürəkdən gəlir, onu ancaq bu ürək sahibi olanlar bilir.

Sufilikdə sevginin insanın təbiəti və mahiyyəti ilə əlaqəsini Əl-Qəzalinin ideyalarının davamçıları olan digər sufi mütəfəkkirlərində görürük. Onlardan bəzilərinin fikirlərini qeyd etmək yerinə düşərdi.

Cəlal əd-Din Məhəmməd Rumi (1207-1273) «Leylinin gözəlliyi» adlı aforizmdə belə yazır: «Məcnunun sevgidən çəkdiyi əzabları görənlər ona kömək etmək üçün belə məsləhət verdilər»:

- Leyli o qədər də gözəl deyildir. Bizim əyalətdə daha gözəl qızlar vardır!

Onlardan birini seç.

Məcnun bu sözləri eşidib, bənizi bozardı və belə cavab verdi:

- Gözəllik qabın nə forması, nə də xarici görünüşü deyildir, onun içindəkidir. Əgər qabın içindəki sizin üçün sirkədirsə, mənim üçün şərbətdir! Belə ki, İlahi eyni Cürdəkdən birinə acı zəhəri, digərinə isə balı tökür, hamı qabı kənardan görür, onun içindəkini kamil adam bilir (2, 175).

Rumi «Bütün mövcudatın mahiyyəti haqqında poema» əsərində «Xəlifə və Leyli» başlığı ilə olan parçada yazır: Bir gün Xəlifəyə bir qızı göstərib dedilər ki, bu Leylidir.

- Xəlifə qıza dedi ki, Qeysi Məcnun edən Leyli sənsən? İstəyirsən məni öldür, səndə mən bir gözəllik görmürəm.

- Qız cavab verdi: mənim gözəlliyimi görmək üçün sən gərək Məcnun olasan. Sən mənə onun gözləri ilə baxmalısan, hər iki dünyada mənə sadiq olmAlısan. Mənim sadəcə toxunmağımla sən gərək məst olasan, bu şirin məst halından çıxmağı arzu etməyəsən. Belə düşüncəsizlik həqiqəti bütün şəffaflığı ilə görmək qabiliyyətini verir. Əgər sənin fikrin nəyi itirəcəyin və nə qazanacağın ətrafında fırlanırsa, mənim sənə yazığım gəlir. Sən heç bir vaxt rahatlıq tapa bilməzsən. Həyatın ancaq kölgəsini görəcəksən.

Bax biz çox tez-tez həyatımızı kölgələrin və kabusların ardınca qaçmaqla keçiririk, həqiqəti və gözəlliyi görmürük!

Əl-Qəzaliyə görə sevginin bütün növləri beş səbəblə təyin olunur: birincisi, insanın özünə, özünün kamilliyinə və təhlükəsizliyinə sevgisi; ikincisi, insanın ömrünün uzadılmasına, onu qorumasına, ona bədbəxtlik gətirənlərin kənardaşdırılmasına kömək edən öz xeyirxahına sevgisi; üçüncüsü, insanın tək özünün deyil, başqalarının da xeyirxahına sevgisi; dördüncüsü, insanın istər daxili, istərsə də xarici gözəl nə varsa, hamısına sevgisi; beşincisi, insanın daxili, gizli oxşarı olana sevgisi (2; 107-108).

İnsanın təbiətində və mahiyyətində sevginin yeri və rolu haqqında Əl-Qəzalinin baxışlarını sufi mütəfəkkiri Sapayi (1080-1140), Attar (1150-1230), Çami (1414-1492), Navoi (1441-1501) və b. da davam etdirmişlər.

Əl-Qəzali sevgiyə alternativ olan normalardan insanın özünü qorumasını xüsusi tövsiyyə etmişdir. Qəzali yazırdı ki, peyğəmbər buyurur: «Üç şeydən heç kəs xilas ola bilmir: şübhədən, pis rəydən və paxıllıqdan. Lakin bunlardan necə xilas olmaq mümkündür: əgər sən şübhələnirsənsə yoxlama; əgər pis düşünürsənsə bu fikirdlən uzaqlaş; əgər paxıllıq edirsənsə onun həsrətində olma».

Daha sonra peybəmbər buyurub: «Od odunu yandırdığı kimi, paxıllıq da ləyaqəti, səxavəti yeyir. Bir-birinizə paxıllıq etməyin, bir-birinizdən küsməyin, bir-birinizə qarşı nifrət etməyin, bir-birinizə qarşı cəza tətbiq etməyin, qardaş olun» (2, 39).

Qəzali bu fikri əsaslandırır ki, insanın xoşbəxtlik haqqında rəyi onun «varlığının səviyyəsini» dəyişməsindən asılı olaraq mütəmadi dəyişir. «İnsan müxtəlif potensial imkanlara malikdir. Bunlardan hər birinə konkret zövq tipi uyğun gəlir. Bundan əlavə ruhi qabiliyyət də mövcuddur ki, bunu mən real zəka adlandırıram. Bu zəka əgər özü üçün maksimum miqdarda bilik toplamaq imkanı əldə edirsə, onda zövqə nail olur. Beləliklə, imkan vermək, həm daxili, həm də xarici ola bilər. Bu formalardan hansına üstünlük vermək onların saflığının səviyyəsindən asılı olacaqdır».

Deməli, mahiyyəti kamilləşdirmək ideyasını qavramağa qadir olan insan bütün qalanları üzərində düşünməyə üstünlük verəcəkdir.

## ƏDƏBİYYAT

1. А.А.Хасматулин. «Суфизм»: Издательский Дом Петербурское Востоковедение–2008, 189 с.
2. Антология мысли. «Суфии. Восхождение к истине»/Сборник притч и афоризмов. М.: Эксомо, 2009, 640 с.
3. Ал-Газали «Божественное знание» (Илм-и Ладуни). В кн. А.А.Хисматулина «Суфизм», Санкт-Петербург, Издательский Дом «Азбука-классика» Петербурское Востоковедение – 2008, с. 156-189
4. Евгений Бертельс. Происхождение Суфизма и зарождение суфисткой литературы. В кн.: Суфии. Восхождение к истине. М.: Эксомо, 2009, с. 477-529
5. «Идрис шах». «Суфизм». В кн. «Суфии», М.: Эксомо, 2009, с. 530-621
6. Prof. Dr. Süleyman Hayri Bolay. «Aristo Metafizigi ile Gazzali metafiziginin karşılaşdırılması». İstanbul, M.E.B. 1993, 308 s.
7. H.R.İmanov, A.Əhədov. Orta əsrlərdə ərəb-müsəlman fəlsəfi fikri. Bakı, Ülvi-Həyat, 2008, 209 s.

## ВЗГЛЯДЫ АЛ-ГАЗАЛИ АБУ ХАМИД ИБН МОХАММЕД О СУЩНОСТИ И БЕССМЕРТИЕ ЧЕЛОВЕКА

ДЕЛБАСТЕХ НОСРАТ АГАБАБА ОГЛЫ

### РЕЗЮМЕ

В статье, посвященной исламскому мыслителю Ал-газали, рассматриваются его понимание природы человека, сукфисткие взгяды на бессмертие. В начале дается краткая информация о личности Ал-газали затем освещаются его взгляды на проблему души. Автор свои мысли основывает на том, что ряд суфитских элементов привнесено в ортодоксальный ислам, и ал-Газали оценивает эти элементы природы человека как сущность егоь жизни.

Статье среди этих элементов выделены следующие: 1. Овладеть знаниями, изучить пути их приобретения и обуславливающие их причины. 2. Чувство любви к богу. 3. Божественная любовь и чувство выбора и т.д.

В статье раскрывается сущность и смысл суфизма.

## AL-GAZALIH ABUH HAMID IBN MOHAMMAD’S VIEWS ON THE ESSENCE AND IMMORTALITY OF A MAN

DELBASTEH NOSRAT AGHABABAH

### SUMMARY

The article dedicated to the Islamic thinker – Al-Gazalih, considers his understanding of man’s nature, elucidates his sufi views on immortality. At the beginning of the article one can have short information about Al-Gazalih’s personality, and the thinker’s opinion to the problem of soul afterwards. The author bases his thought to the fact that a number of sufist elements were brought into Islam orthodoxy and Al-Gazalih estimaties these elements of human nature as its essence.

The article focuses on the following of these elements: getting knowledge, mastering it and the reasons of its stipulation; 2. The feeling of love to God; 3. The divine love and feeling of choice etc.

This article reveals the essence and meaning of Sufism.